# İğdır-Naxçıvan qaz kəmərinin tikintisi yekunlaşıb



**İğdır-Naxçıvan qaz boru kəməri tamamlanıb. Yaxın günlərdə kəmərin açılış mərasiminin keçiriləcəyi gözlənilir. Bu barədə Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar məlumat verərək deyib: "Biz Naxçıvana təbii qaz ixracına başlayırıq. İğdır-Naxçıvan kəmərinin tikintisi başa çatıb... Naxçıvanın qaza olan tələbatı artıq Türkiyə vasitəsilə ödəniləcək".**

İğdır-Naxçıvan qaz boru kəmərinin təməli 2023-cü il sentyabrın 25-də qoyulub. Təməlqoyma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və həmin vaxt ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər. Azərbaycan və Türkiyə arasında bu qaz boru kəmərinin tikintisinə dair Anlaşma Memorandumu isə 2020-ci il dekabrın 15-də Ankarada imzalanıb.

Kəmərin çəkilişində məqsəd Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmaqdır. Bunun üçün Prezident İlham Əliyevin 10 fevral 2022-ci il tarixli sərəncamına əsasən, İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir. Bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək. Gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Azərbaycan-Türkiyə enerji əməkdaşlığının uğurları artıq dünyaya bəllidir. Belə ki, bu əməkdaşlıq təkcə ölkələrimizin mənafeyinə xidmət etmir, həm də daha geniş coğrafiyanı əhatə edir. 2006-cı ilin ortalarından tam sistem kimi fəaliyyət göstərən, Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini xatırlatmaq yerinə düşər. Getdikcə daha da möhkəmlənən bu əlaqələrin ən önəmli göstəricilərindən biri də məhz İğdır-Naxçıvan qaz boru xəttidir. Xatırladaq ki, bu, iki ölkə arasında strateji tərəfdaşlıq çərçivəsində həyata keçirilən üçüncü qaz boru kəməridir. Bakı-Tbilisi-Ərzurum kəməri 2007-ci ildən fəaliyyət göstərir. TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) isə Azərbaycan qazını Türkiyəyə 2018-ci ilin ortalarından çatdırır. TAP (Trans-Adriatik Qaz Boru Kəməri Avropaya nəql etdiyi qazı da məhz TANAP-dan qəbul edir.

Yeni kəmər isə qeyd edildiyi kimi, Naxçıvan Muxtar Respublikasının qaz təminatını sabit və etibarlı bir mənbədən qarşılayaraq onun enerji təhlükəsizliyini təmin edəcək. Hazırda Naxçıvan qazla Azərbaycan və İran arasındakı svop müqaviləsi əsasında təmin olunur, lakin İğdır-Naxçıvan xəttinin inşası ilə bu asılılıq aradan qalxacaq.

Layihə həm Azərbaycanın enerji müstəqilliyini gücləndirəcək, həm də Türkiyə ilə iqtisadi bağları daha da möhkəmləndirəcək. Ən önəmlisi isə Azərbaycanın Naxçıvana nəql ediləcək qazın keyfiyyətinə nəzarət edə bilməsidir.

Layihənin Azərbaycan hissəsinin tikintisini Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), Türkiyə hissəsini isə BOTAŞ şirkəti həyata keçirir. Kəmərin Azərbaycan hissəsinin tikintisi 2023-cü ilin iyul ayında başlanıb. Sədərək qazpaylayıcı stansiyası "Revers" tipindədir, yəni qazı həm qəbul, həm də ixrac edə bilir.

Qaz boru xəttinin Türkiyə hissəsindəki son stansiyası Dilucudur. Başlanğıc nöqtədən çıxan qaz 80 kilometrdən çox məsafə qət edərək bu stansiyaya çatdırılacaq və oradan Naxçıvana nəql ediləcək.

SOCAR səlahiyyətlisinin təsdiqlədiyinə görə, kəmərin gündəlik ötürücülük gücü 2 milyon kubmetr nəzərdə tutulub ki, bu da illik təxminən 730 milyon kubmetrə bərabərdir. Layihəyə edilə biləcək kiçik modifikasiyalarla bu həcmi gündəlik 5 milyon kubmetrə, yəni illik 1,8 milyard kubmetrə qədər artırmaq mümkündür.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-4 mart (№48).- S.6.